Kazus

Faktlar – Birinci ərizəçi və üçüncü ərizəçi stabil homoseksual münasibətlərdə yaşayan iki qadındır. İkinci ərizəçi üçüncü ərizəçinin azyaşlı oğludur. O, nikahdan kənar doğulub. Onun atası atalığı qəbul edib, lakin üçüncü ərizəçi onun yeganə himayəçisi idi. Birinci ərizəçi aralarında hüquqi münasibət yaratmaq üçün oğlanın anası ilə münasibətinə xitam vermədən ikinci ərizəçini övladlığa götürmək arzusunda olub və bu məqsədlə övladlığa götürmə haqqında razılaşma bağlanıb. Lakin dövlətdaxili məhkəmələr daxili qanunvericiliyə əsasən bir şəxs tərəfindən övladlığa götürmənin eyni cinsdən olan bioloji valideynlə ailə-hüquqi münasibətə xitam vermək təsirinə malik olduğunu müəyyən etdikdən sonra, razılaşmanı təsdiq etməkdən imtina etdilər, belə ki, oğlanın birinci ərizəçi tərəfindən övladlığa götürülməsi onun atası ilə deyil, anası, üçüncü ərizəçi ilə münasibətə xitam verəcəkdi. Ərizəçilər bir partnyorun digər partnyorun uşağını övladlığa götürmək arzusunda olduğu nikahda olmayan müxtəlif-cinsli cütlüklə müvafiq oxşar situasiyada idilər. Qanunvericilik nikahda olmayan müxtəlif-cinsli cütlük tərəfindən ikinci valideynin övladlığa götürməsinə icazə verib. Əksinə olaraq, eyni-cinsli cütlükdə ikinci valideynin övladlığa götürməsi qanunla mümkün deyildi. Mülki Məcəllənin müvafiq müddəaları nəzərdə tutub ki, övladlığa götürən istənilən şəxs eyni cinsdən olan bioloji valideyni əvəz edir. Birinci ərizəçi qadın olduğundan, onun öz partnyorunun uşağını övladlığa götürməsi yalnız uşağın anası ilə münasibətlərinə xitam verildikdə mümkün idi. Övladlığa götürmə buna görə də uşağın anası ilə münasibətlərdən əlavə, birinci ərizəçi və uşaq arasında valideyn-uşaq münasibətlərini yaratmağa xidmət edə bilməzdi. Dövlətdaxili məhkəmələr aydınlaşdırdı ki, ərizəçilərin arzu etdiyi nəticəni doğuran övladlığa götürmə Mülki Məcəlləyə əsasən mümkünsüz idi.

Övladlığa götürmənin mümkünsüzlüyünün daimi olaraq onların mülahizələrinin mərkəzində olduğunu nəzərə alsaq, dövlətdaxili məhkəmələr övladlığa götürmənin uşağın maraqlarında olub-olmadığını istənilən anlamlı şəkildə araşdırmaq imkanından məhrum olmuşdular. Əksinə olaraq, nikahda olmayan müxtəlif-cinsli cütlüyün işində onlardan bu məsələni araşdırmaq tələb olunacaqdı.

Dövlətdaxili məhkəmələr bildirdi ki, övladlığa götürmə haqqında qanunvericilik bioloji ailənin bərpasına yönəlib. Ənənəvi mənada ailənin qorunması prinsipcə rəftarda fərqə haqq qazandıra biləcək qanuni əsas idi. Bu, uşağın maraqlarının qorunmasına da tətbiq olunurdu. Eyni-cinsli cütlüklər tərəfindən ikinci valideynin övladlığa götürməsi ilə bağlı Avropa Dövlətləri arasında konsensus mövcud deyildi və nəticə etibarilə Dövlət bu məsələni tənzimləmək üçün geniş mülahizə sərbəstliyinə malik idi.

Sual: Eyni-cinsli cütlükdə ikinci valideyn tərəfindən övladlığa götürmənin mümkünsüzlüyü ilə bağlı qanunvericilik - nikahda olmayan müxtəlif-cinsli cütlüklərlə eyni-cinsli cütlüklər arasında bu cür övladlığa götürmə ilə bağlı rəftar 8-ci maddəyə uyğundurmu?

Hazırladı: Günel Sevdimalıyeva